Səh. 2 #SOYADIMI QAYTAR!
Səh. 3 QURAN ƏXLAQI İLƏ ƏXLAQLANMAQ
Səh. 4 20 იანვარი - ჩვენი ისტორიის საპატიო და გმირობის გვერდი
Səh. 5 BERİKA ŞUKAKİDZE: DİREKTORLAR İSTİLİK SİSTEMİNİN VƏZİYYƏTİNƏ DEYİL, TƏDRİS PROSESİNƏ İSTİQAMƏTLƏNMİŞ OLACAQLAR
Səh. 6 AMERİKALI KONQRESMENLƏR GÜRCÜSTANIN BAŞ NAZİRİNƏ MƏKTUB YAZIBLAR: GÜRCÜSTANIN ƏSAS SƏKKİZ PROBLEMİ
Səh. 7 FEVRALIN 1-DƏN İÇMƏLİ SU ŞƏBƏKƏSİNƏ YENİ QOŞULANLAR 500 LARİ ƏVƏZİNƏ 400 LARİ ÖDƏYƏCƏKLƏR
Səh. 8 QRİP VƏ SOYUQDƏYMƏ ZAMANI YOLVERİLMƏZ 5 SƏHV
Səh. 8 ÖTƏN İL GÜRCÜSTAN ÇİNDƏN 859 MİLYON DOLLARLIQ MAL ALIB

İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 YANVAR
2020-Cİ İL
№002 (106)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## SALOME ZURABİŞVİLİ: "MÜXTƏLİFLİK GÜRCÜSTANIN SOSİAL-İQTİSADİ İNKİŞAFININ ƏSAS TƏRKİB HİSSƏSİDİR"




"Gürcüstanda müxtəlif dinlərin nümayəndələri əsrlər boyu birgə yaşayıblar". Bunu prezident Salome Zurabişvili Avropa Şurası Parlament Assambleyasında çıxışı zamanı deyib.

O, bildirib ki, Gürcüstanda dözümlülük və birgə yaşayış ənənəsi bu gün də davam edir.

"Tbilisi və Kutaisidə elə rayonlar var ki, pravoslav, katolik, erməni qriqoryan kilsələri, sinaqoq və məscidlər yanbayan yerləşir. Tbilisidəki məscid şiə və sünnilərin birgə ibadət etdiyi yeganə məsciddir", - deyə S.Zurabişvili deyib.

Prezident bildirib ki, Gürcüstan Pravoslav Kilsəsi xüsusi konstitusion statusa malik olsa da, dövlət digər dini təşkilatların da hüquqlarını tanıyır: "Dini Məsələlər üzrə Dövlət Agentliyi 11 konfessiyaya hüquqi və maliyyə yardımı göstərir".

Salome Zurabişvili Gürcüstanda müxtəlif etnik mənsubiyyətə məxsus insanların dil, mədəni və dini özünəməxsusluğunun tam qəbul olunduğunu vurğulayıb.

"Müxtəliflik Gürcüstanın sosial-iqtisadi inkişafının əsas tərkib hissəsidir. Milli azlıqlar mədəni, ana dili və adət-ənənələrinin reallaşdırılması azadlıqlarından istifadə edirlər. Samtsxe Cavaxeti və Kvemo Kartli bölgələrində yaşayan müxtəlif etnik qruplar dövlət dilini bilmirlər və bu da onların inteqrasiyasına mane olur. Dövlət bu problemi həll etmək və bu qrupların ölkənin sosial və mədəni həyatında daha fəal iştirakını təmin etmək üçün çalışır", - deyə S.Zurabişvili bildirib.

## TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ: "GÜRCÜSTAN NATO-NUN ÜZVÜ OLMALIDIR"




Davos Dünya İqtisadi Forumunda iştirak edən Türkiyənin xarici işlər naziri Mevlüt Çavuşoğlu bildirib ki, Türkiyə NATO-nun genişləndirilməsinə ehtiyac olduğunu hesab edir. Nazir həmçinin Gürcüstanın NATO-ya üzv olmasını dəstəklədiyini qeyd edib.

"Başa düşmürəm, Gürcüstanı niyə dəvət etmədik, yaxud niyə Gürcüstan üçün (üzvlük) fəaliyyət planı vermədik", - deyə M.Çavuşoğlu bildirib.

O, həmçinin qeyd edib ki, Türkiyəni "Rusiya ilə qonşu kimi müqayisədə daha yaxşı əlaqələrinin olmasına görə" tənqid etdilər, onun "qərbli dostları Rusiyanı provokasiya etməmək səbəbi ilə Gürcüstanı dəvət etmirlər, yaxud dəvət olunmasına razılaşmırlar".

"Amma biz Gürcüstana lazımıq və bizə də Gürcüstan kimi müttəfiq lazımdır", - deyə M.Çavuşoğlu bildirib və qeyd edib ki, "Gürcüstan NATO-nun üzvü olmalıdır".

## HÖKUMƏT KORONAVİRUSLA MÜBARİZƏ ÜZRƏ FƏALİYYƏT PLANI QƏBUL EDİB




Hökumət koronavirusun Gürcüstan ərazisində mümkün yayılmasının qarşısının alınması məqsədilə fəaliyyət planı qəbul edərək təsdiqləyib.

Gürcüstanın hər bir dövlət qurumuna səlahiyyətləri çərçivəsində müvafiq tədbirlər həyata keçirmək tapşırılıb.

Gürcüstanın Maliyyə Nazirliyinə tədbirlərin həyata keçirilməsi üçün maliyyə resurslarının ayrılmasına göstəriş verilib. Ehtiyac yaranacağı təqdirdə Gürcüstan hökumətinin ehtiyat fondundan da maliyyə vəsaiti ayrılacaq.

Fəaliyyət planında koronavirusun mümkün yayılmasına qarşı qabaqlayıcı tədbirlər, həmçinin virusun aşkar olunacağı təqdirdə tələb olunacaq addımlar da yer alıb.



# #SOYADIMI QAYTAR!

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Ötən günlərdə azərbaycanlı gənclərdən ibarət "Salam Platforması" "Soyadımı qaytar!" adlı kampaniyaya başladı. Platforma üzvləri "Facebook" sosial şəbəkəsində soyadlarındakı "ev", "ov" sonluqlarını milli sonluqlarla əvəz edərək Rusiyanın azərbaycanlı soyadlarının 20 faizinin işğalına etirazlarını bildirdilər və soyadın dəyişdirilməsi ilə bağlı Ədliyyə Evinə müraciət edənlər də oldu. Amma və lakin...

Əsas məsələyə keçməmişdən əvvəl qeyd etmək istəyirəm ki, bu yazını əli internetə, "Facebooka" çatmayanlar üçün yazıram, yazıram ki, onların da ümummilli olan bu məsələdən xəbərləri olsun, onlar da "Salam Platforması" haqqında eşitməmişik deməsinlər.

"SALAM", onlar gəldilər. Ötən ilin oktyabrında şagirdinin zorla qaçırıldığına etiraz etdiyinə görə ictimai qınaqla üzləşən gənc müəllim Həmid Sadıxa dəstək üçün Gürcüstanın müxtəlif yerlərindən toplaşıb Qardabaniyə gəldilər. Cəmiyyətimizi, icmamızı narahat edən problemləri səsləndirmək üçün gəldilər. Haqsızlığa, ədalətsizliyə qarşı mübarizə aparmaq üçün gəldilər. Erkən evliliyə, qızların zorla qaçırılmasına etiraz etmək üçün gəldilər. Müəllimlərimizə, həkimlərimizə, alimlərimizə, mühəndislərimizə sahib çıxmaq üçün gəldilər. Mədəniyyətimizi və tariximizi qorumaq üçün gəldilər və Həmid müəllimi tək qoymadılar. Hər şey bundan sonra başladı. İndiyə kimi müxtəlif tədbirlər, görüşlər, yürüşlər təşkil edən "Salam Platforması" bu yaxınlarda rəsmi olaraq dövlət qeydiyyatına da alındı. Təbrik edirəm və uğurlar diləyirəm!

Qayıdıram amma və lakin bağlayıcılarından sonraya. "Salam"ın soyad sonluqları ilə bağlı başladığı kampaniya gürcü mediasının diqqətini çəkdi. Bu təşəbbüslə "özümüz danışıb, özümüz eşidirik" birtərəfli formatda əvvəllər də çıxış edənlər olmuşdur. Amma bu dəfə "Salam"ın danışdığını özümüz deyil, özgələr də eşitdi, özü də ingilis və gürcü dillərində.

Təəssüf ki, soyad sonluqlarının dəyişdirilməsi ilə bağlı bu özünəqayıtma cəhdinə ağız büzənlər də oldu. Görəsən bu təşəbbüs o insanları niyə narahat edir? Axı svanlarla meqrelləri belə soyad sonluqlarından tanıyıb, ayırd edirsiniz. Öz əlifbamız olmasın, öz məktəbimiz olmasın, öz soyadımız olmasın... bəs nəyimiz olsun? Sən istəmirsən öz işindir, bəs istəyənlərə niyə daş atırsan? Kimsə kiminsə soyadını zorla dəyişdirmir ki.

Məni soyadımla heç kəs tanımır. Tələbə vaxtından soyadımdakı rus sonluğuna etiraz olaraq atamın adını təxəllüs götürmüşəm. Sovetlərin soyadlarımızı ruslaşdırdığı azmış kimi, bir "i" də gürcülər artırdı. Soyadlarımız təhrif olunaraq elə bir hala salındı ki, doğmaca dədə-babalarımızı sübut eləmək məcburiyyətində qaldıq. Pasportumda ingilis dilində adımın sonundan "i" hərfini birtəhər götürdə bildim. Amma bu bürokratik mübarizəyə qoşulmağa çoxunun nə vaxtı var, nə həvəsi, nə də pulu. Ona görə də "Salam"ın başladığı bu təşəbbüs hamılıqla dəstəklənməlidir ki, Rusiyanın soyadlarımızın işğal etdiyi 20 faizini gələcək nəsillər üçün geri qaytaraq. Çünki bu, təkcə fərdlərə və indiki zamana aid məsələ deyil, bu, bütövlükdə millətə və gələcək nəsillərə aiddir.

# RƏYİ SORUŞULANLARIN 64%-İ HÖKUMƏTİN FƏALİYYƏTİNDƏN NARAZIDIR

NDI
NATIONAL DEMOCRATIC INSTITUTE

ABŞ-ın Milli Demokratiya İnstitutunun (NDI) Gürcüstanda keçirdiyi ictimai rəy sorğusunun nəticəsinə əsasən, Gürcüstanda rəyi soruşulanların 64%-i hökumətin fəaliyyətini mənfi qiymətləndirib. Respondentlərin 30%-i isə hökumətin fəaliyyətini yaxşı qiymətləndirib.

Sorğuda iştirak edənlərin 53%-i Gürcüstanda demokratiyanın olmadığını bildirib. Onların 33%-i isə bunun əksini söyləyib.

Qeyd edək ki, NDI sorğunu işğal altında olan ərazilər istisna olmaqla bütün Gürcüstan üzrə 2019-cu il noyabrın 19-dan dekabrın 13-dək 2 180 respondent arasında keçirib.

# HÖKUMƏT ƏN BÖYÜK VƏSAİTİ MÜSƏLMAN İCMASINA AYIRIB

2020-ci ilin dövlət büdcəsindən Gürcüstanda fəaliyyət göstərən dini icmalara 4,5 milyon lari həcmində vəsait ayrılıb. Bu barədə Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyi məlumat yayıb.

Məbləğin 3,5 milyon larisi dini icmalar arasında artıq bölüşdürülüb.

Ötən il olduğu kimi, bu il də vəsaitin böyük hissəsi – 2,2 milyon lari olmaqla Gürcüstanın müsəlman icmasının payına düşüb. Erməni xristian icmasına 600 min lari, Roma katolik icmasına 400 min lari, yəhudi icmasına ayrılan vəsait isə 300 min lariyə bərabərdir.

Vəsaitin yerdə qalan 1 milyon larisi isə bu ilin sonuna qədər dini icmalara paylanılacaq.

Qeyd edək ki, Gürcüstanda əhalinin 11%-ni müsəlmanlar təşkil edir.

# GÜRCÜSTANIN KƏŞFİYYAT XİDMƏTİNİN RƏHBƏRİ İSTEFA VERİB



Gürcüstanın Kəşfiyyat Xidmətinin rəhbəri Levan İzoria vəzifəsindən istefa verib. Bu barədə L.İzoria özü bildirib.

O bildirib ki, bundan sonra Gürcüstanın Almaniyadakı səfiri vəzifəsində çalışacaq.

Qeyd edək ki, L.İzoria 2016-cı ilin avqustundan 2019-cu ilin sentyabrın 3-nə qədər Gürcüstanın müdafiə naziri olub. O, ötən ilin sentyabrında Kəşfiyyat Xidmətinə rəhbər, noyabrında isə Milli Təhlükəsizlik Şurasının katibi təyin olunub.

# GÜRCÜSTAN ÇİNLƏ BİRBAŞA AVİAUÇUŞLARI DAYANDIRIB

Gürcüstanın Mülki Aviasiya Agentliyinin məlumatına əsasən, Gürcüstan Çinlə birbaşa aviauçuşları müvəqqəti olaraq dayandırıb.

Qərar koronavirusun Gürcüstan ərazisinə keçməsinin qarşısının alınması məqsədilə həyata keçirilən profilaktik tədbirlər çərçivəsində qəbul olunub.

Çin tərəfi Gürcüstanın Mülki Aviasiya Agentliyinin qərarı barədə məlumatlandırılıb.

Gürcüstan və Çin arasında birbaşa aviauçuşlara qadağa martın 29-na qədər qüvvədə qalacaq.

Hökumətin qərarına əsasən, Gürcüstan Çinlə ticarət əlaqələrini də dayandıraraq Çindən təkrar ixrac və tranziti qadağan edib.

# ÖTƏN İL GÜRCÜSTANDA 195 NƏFƏR İTKİN DÜŞÜB

2019-cu ildə Gürcüstanda 195 nəfər itkin düşüb. Bu haqda Gürcüstanın Daxili İşlər Nazirliyinin yayımladığı statistik məlumatda bildirilir.

Məlumata əsasən, itkin düşən 195 nəfərdən 133-nü tapmaq mümkün olub ki, onlardan 10-u dünyasını dəyişmiş olub. Sağ tapılanlar arasında dörd Belçika vətəndaşı, iki Səudiyyə Ərəbistanı vətəndaşı, həmçinin Azərbaycan, Qazaxıstan, Rusiya və İordaniya vətəndaşları da olub.

Ötən il polis 16 yaşa qədər olan itkin düşmüş yeddi yeniyetməni tapa bilməyib. Həmçinin polis 12 nəfər 61 yaşdan yuxarı, 5 nəfər 17-24 yaş arası, 25 nəfər 25-44 yaş arası, 13 nəfər 45-60 yaş arası itkin düşmüş şəxsləri axtarır.

Statistikaya əsasən, 1973-cü ildən 2020-ci il yanvarın 1-nə qədər Gürcüstanda 6 minə yaxın insan itkin düşüb, onlardan 5 minə yaxınını tapmaq mümkün olub.

2018-ci ildə Gürcüstanda 167 nəfər itkin düşüb, 2019-cu il yanvarın 1-nə qədər onlardan 100 nəfəri sağ, 15 nəfəri isə ölü tapılıb.

# DAVİD ZALKALİANİ TÜRKİYƏLİ HƏMKARINA TƏŞƏKKÜR EDİB



Xarici işlər naziri David Zalkaliani türkiyəli həmkarı Mevlüt Çavuşoğluna Gürcüstanın NATO-ya üzvlüyü ilə bağlı bəyanatına görə təşəkkür edib.

"Gürcüstanın NATO-ya üzvlüyə yorulmaz səylərini dəstəklədiyinizə görə minnətdaram. Dəstəyinizin önəmi Gürcüstanın hazırda üzləşdiyi problemləri nəzərə alaraq çox böyükdür. Biz NATO-ya üzvlük yoluna möhkəm olaraq sadiqiq", - D. Zalkaliani özünün "Twitter" hesabında yazıb.

Qeyd edək ki, M.Çavuşoğlu Davosda keçirilən Dünya İqtisadi Forumu çərçivəsində Gürcüstanın NATO-ya üzvlüyünün vacib olduğunu vurğulayıb.

# AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRİ GÜRCÜSTANDA RƏSMİ SƏFƏRDƏ OLUB

Azərbaycanın müdafiə naziri Zakir Həsənov Gürcüstana rəsmi səfəri çərçivəsində ölkənin müdafiə naziri İrakli Qaribaşvili ilə görüşüb. Nazirlər strateji tərəfdaşlıq və müdafiə sahəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

İ.Qaribaşvili azərbaycanlı həmkarına Gürcüstanın suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyinə görə minnətdarlığını bildirib və qeyd edib ki, ölkələr arasında dostluq və mehriban qonşuluq əlaqələri regionda stabilliyin və təhlükəsizliyin zəmanətidir.

Nazirlər hərbi sahədə ikitərəfli əməkdaşlıq istiqamətində də müzakirələr aparıblar. Görüşün sonunda İ.Qaribaşvili və Z.Həsənov 2020-ci ilin ikitərəfli əməkdaşlıq planını imzalayıblar. Plan müdafiə sahəsindəki əlaqələrin daha da dərinləşməsinə və uğurlu əməkdaşlığa dəstək olacaq.



Gürcüstana rəsmi səfəri çərçivəsində Azərbaycanın müdafiə naziri həmçinin Gürcüstanın parlament sədri Arçil Talakvadze ilə də görüşüb. A.Talakvadze Gürcüstanın Azərbaycanla sıx münasibətlərinin olduğunu deyib. Spiker Azərbaycanla münasibətlərin bundan sonra daha da inkişaf edəcəyinə əminlik ifadə edib. Tərəflər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## GÜRCÜSTANIN BAŞ NAZİRİ VƏ XARİCİ İŞLƏR NAZİRLİYİ TÜRKİYƏYƏ BAŞSAĞLIĞI VERİB

"Türkiyədə dağıdıcı zəlzələ nəticəsində həlak olanların ailələrinə başsağlığı verirəm. Bu çətin anlarda Gürcüstan Türkiyəni dəstəkləyir və onun yanındadır". Bunu Gürcüstanın baş naziri Giorgi Qaxaria özünün "Twitter" hesabında yazaraq Türkiyədə baş verən zəlzələ nəticəsində ölənlərin ailələrinə başsağlığı verib.

Gürcüstanın Xarici İşlər Nazirliyi də Türkiyədə baş verən zəlzələ ilə bağlı nazirliyin "Twitter" hesabında başsağlığı ünvanlayıb. Başsağlığında deyilir: "Türkiyədə baş verən zəlzələ ilə bağlı dərin hüznlə başsağlığı veririk. Gürcüstan yaxın müttəfiq və dostuna tam həmrəyliyini ifadə edir. Türkiyə xalqının, xüsusən də ölənlərin ailələrinin kədərini bölüşürük, yaralananların hamısının tezliklə sağalmasını arzulayırıq".

Qeyd edək ki, yanvarın 24-ü Türkiyənin Elazığ şəhərində baş verən güclü zəlzələ nəticəsində 41 nəfər dünyasını dəyişib, 1607 nəfər yaralanıb.

## GÜRCÜSTAN GƏNCLƏRİNƏ YARDIM VƏ MAARİFLƏNDİRMƏ TƏŞKİLATI 20 YANVAR ŞƏHİDLƏRİNİ YAD EDİB



Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının nəzdində fəaliyyət göstərən Tbilisi Tələbə Yataqxanasında 20 Yanvar şəhidləri yad edilib.

Yataqxananın rəhbəri Şirxan Çobanov görüş haqqında məlumat verdikdən sonra 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Gürcüstan parlamentinin millət vəkili Mahir Dərziyev 20 Yanvar hadisələrinin Azərbaycan Respublikası və dünya azərbaycanlıları üçün əhəmiyyətindən danışıb.

O, həmçinin Gürcüstan hökumətinin gənclərlə bağlı layihələrindən danışaraq onların dünyada söz sahibi olmaları istiqamətində çalışmalar aparıldığını bildirib.

Sonda tələbələrin suallarına cavab verən millət vəkilinə təşkilat tərəfindən hədiyyə təqdim olunub.

# QURAN ƏXLAQI İLƏ ƏXLAQLANMAQ



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Cəmiyyətə həyat qazandıran insan haqlarına hörmət, cəmiyyət mənfəətini öz mənfəətindən üstün tutma, həmrəylik və qardaşlıq kimi ülvi fəzilətlər qaynağını tamamilə dindən alır. Bu səbəblə dini hiss və düşüncədən məhrum fərdlərdən ibarət olan cəmiyyətlərdə birarada yaşamaq qabiliyyəti çox zəifdir. Aralarına sement qoyulmadan bir-biri üzərinə yığılmış daşların meydana gətirdiyi divar necə yüngül bir zərbədən yıxılarsa, şəxsi mənfəət naminə bir-birindən ayrılmış insanlar birliyi də içdən və ya çöldən kiçik bir sarsıntı ilə yıxılar. Halbuki Quranın ülvi səsinin qardaş etdiyi ürəklərin meydana gətirdiyi iman cəmiyyəti heç də belə deyildir. Başda Rəsulu Əkrəm (s.ə.s) əfəndimiz və onun dəyərli səhabələri olmaq üzrə möminlər "Hamınız Allahın ipinə sıx sarılın" (Ali İmran-103) əmriylə məqsədlərin ən ülvisi olan ilahi razılıq ətrafında yığıldılar. Tarix boyunca da yenə bu əmrlə eqoist əməllərin əsarətindən xilas olduqlarında maddi və mənəvi irəliləyişin ən şanlı nümunələrini sərgilədilər.

İnsanlarla yaxşı dolanmaq, bütün varlıqların hüququnu qorumaq, müqəddəs kitabımızda və hədisi-şəriflərdə çox sayda əmr və tövsiyyələr halında bildirilmişdir. Bu bəyanda, hər vaxt yaxşı niyyətli olmaq və dözümlülük müsəlman adamın xüsusiyyəti olaraq önə çıxır. Allahu-Təala Qurani-Kərimdə həqiqi möminləri təsvir edərkən belə buyurur: "Onlar hirslərini udarlar və insanları bağışlayarlar. Allah yaxşılıq edənləri sevər" (Ali İmran-134). İndi hər növ böhranın pəncəsindəki insanlıq bunu yenə gözləyir. Bizlərdən gözləyir. Bu böhrandan qaçmanın yeganə yolu isə Quran əxlaqı ilə əxlaqlanmaqdır.

Quran əxlaqı bir insanın bütün həyatını əhatə edir. Qurani-Kərimdə yalnız namaz, oruc, zəkat kimi ibadətlər izah edilməz. Bu ibadətlərin yanında sevgi, hörmət, mərhəmət, xoşgörüşlülük, birlik, bərabərlik, fədakarlıq, vəfa kimi duyğulardan da bəhs edilir. Quranı rəhbər tutan bir müsəlman Quranda təsvir edilən üstün əxlaqı yaşamaq üçün həyatı boyunca cəhd göstərər və heç bir zaman Allahın istədiyi Quran əxlaqından uzaq durmaz. Lakin burada əhəmiyyətli olan mövzu budur ki, səmimi bir müsəlman Quran əxlaqını yaşamaq üçün göstərdiyi incəliyi və qeyrəti Quran əxlaqının digər insanlar tərəfindən yaşanması üçün də göstərər. Bunun üçün ən yaxınlarından başlayaraq, dinsizlik təhlükəsinə qarşı hər kəsə İslamı təbliğ edər. Təbliğ etmək, insanları Allahın dininə, Qurana dəvət etmək, dinsizliyin təhlükələrinə qarşı insanları xəbərdar etmək hər müsəlmanın ən əhəmiyyətli vəzifələrindən biridir. Müsəlmanlar birlik olaraq "fitnə yer üzündən qalxana" və "din Allahın olana" qədər Quran əxlaqının yayılması üçün mübarizə etməklə vəzifəlidirlər.

Müsəlmanların birlik içində, Allahın Quranda bildirdiyi kimi "səf bağlayaraq" mübarizə etmələri çox əhəmiyyətli bir mövzudur. Çünki dinsizliyin yayılmasını istəyənlər birlik və bərabərlik içindədirlər. Buna görə Uca Allah möminlərin də onlara qarşı birlik içində olmalarını əmr etmişdir. Əks halda yer üzündə fəsad və fitnənin hakim olacağını bildirmişdir: "İnkar edənlər bir-birlərinin vəliləridir. Əgər siz bunu etməsəniz (bir-birinizə kömək etməz və dost olmasanız) yer üzündə bir fitnə və böyük bir təxribat (fəsad) olar" (Ənfal - 73).

İndiki vaxtda da dünyanın hər yerində dinsizliyin gətirdiyi təhlükələrdən ötəri insanlar çox acı çəkməkdədirlər. Dinsizliyi təşkilatlandıranlar, ateizm, darvinizm, materializm kimi fəlsəfələrin cəmiyyətdə yayılmasını təmin edərək din əxlaqından uzaq fərdlər yetişdirməyi qarşılarına məqsəd qoymuşlar. Və təəssüf ki, bu zehniyyət cəmiyyətlərdə eqoist, şəfqət və mərhəmətdən məhrum, mənfəətçi, yalançı insanlar yetişdirməkdədir. Allah qorxusunun olmadığı, Quran əxlaqının hakim olmadığı cəmiyyətlər belə təhlükəli insanların idarəsində olmağa məhkumdurlar.

Dinsizlik insanlarda psixoloji problemlərə səbəb olar, əxlaqi degenerasiya Allahdan bir bəla olaraq o cəmiyyətlərə hakim olar. Quran əxlaqının hakim olduğu cəmiyyətlərdə isə yuxarıda saydıqlarımızın əksinə, şəfqətli, mərhəmətli, xoşgörüşlü, fədakar, yetkin, yalnız Allahın razılığını düşünərək hərəkət edən, Allah üçün sevən fərdlər yetişər. Quran əxlaqının yaşandığı cəmiyyətlərdə, Allahdan bir rəhmət olaraq, insanlar etibarlı, dinc və bərəkətli bir mühitdə həyatlarını davam etdirərlər. Əsasən müsəlmanların bir-birləriylə münasibətlərində təyinedici olan təməl ünsür sevgidir. Çünki Allah onları bir-birlərinin qardaşı etmişdir. Peyğəmbərimiz (s.ə.s.) bir hədisi-şərifində belə buyurur: "Nəfsim qüdrət əlində olan Allaha and içirim ki, iman etmədikcə Cənnətə girə bilməzsiniz. Bir-birinizi sevmədikcə də tam mənasıyla iman etmiş olmazsınız." Möminlərə çox yaraşan bu sevginin qaynağı ürəklərdəki Allah sevgisidir. Yəni möminlərin, Yunusun təbiriylə yaradılanı Yaradandan ötrü sevməsidir. Nəticə olaraq, dinsizliyin gətirdiyi təhlükələri ortadan qaldırmaq üçün tək çarə müsəlmanların birlik olaraq Quran əxlaqını səmimi bir şəkildə yaşamaları və digər insanlara da Quran əxlaqını ən gözəl şəkildə təbliğ etmələridir. "Rəbbinin yoluna hikmətlə və gözəl nəsihət edərək çağır və onlarla ən gözəl bir şəkildə mübarizə et…" (Nəhl-125).

# 20 იანვარი - ჩვენი ისტორიის საპატიო და გმირობის გვერდი

თავისუფლებისთვის მებრძოლ გმირთა ტრაგედიიდან 30 წელი გადის. ერთ - ერთი ასეთი ტრაგედია - 20 იანვრის სისხლიანი ტრაგედიაა. 1990 წლის 19-20 იანვარს ღამით, სომხეთის აგრესიული მოქმედებები, რომლებიც წარმოადგენენ ტერიტორიულ პრეტენზიებს ჩვენი ქვეყნის წინააღმდეგ და ყოფილი საბჭოთა კავშირის ხელმძღვანელობის მხრიდან ბაქოს ქუჩებში დამოედნებში პროტესტზე გამოსულ, დამოუკიდებელი სახელმწიფოს შექმნისა და თავისი სუვერენიტეტის მიღწევისთვის აჯანყებულ ხალხთა მასის წინააღმდეგ საბჭოთა ჯარის შეიარაღებული ნაწილები შეიყვანა, რამაც აზერბაიჯანში უპრეცედენტო ტრაგედია გამოიწვია.




აზერბაიჯანის თავისუფლებისა და ტერიტორიული მთლიანობისთვის ბრძოლა ისტორიაში გმირობის გვერდის სახით შევიდა, ამ ტრაგიკულ დღეებში თავისი ქვეყნის, ხალხის თავისუფლების, პატივისა და ღირსების უზენაესობისთვის დაღუპული სამშობლოს შვილები მწვერვალზე ამაღლდნენ.

20 იანვრის ტრაგედიას უდიდესი უდანაშაულო ხალხის სიცოცხლე ემსხვერპლა, ეს იყო მიხეილ გორბაჩოვის მეთაურობით დანაშაულებრივი იმპერიის ხელმძღვანელობის მიერ აზერბაიჯანის წინააღმდეგ განხორციელებული მოღალატე პოლიტიკის შედეგი, აზერბაიჯანის ხალხმა ვერ მოითმინა ეს პოლიტიკა, თავისი თავისუფლებისთვის და დამოუკიდებლობისთვის გამოიჩინა მებრძოლი სული, გამძლეობა და სიამაყე.

ამ სისხლიანმა დანაშაულობამ ვერ შეძლო ხალხის თავისუფლებისადმი სიყვარულის ჩაქრობა, მაგრამ ჩვენმა ხალხმა მოახერხა თავისი სახელმწიფოებრივი დამოუკიდებლობის მიღწევა სისხლის ფასად.

აზერბაიჯანელების წინააღმდეგ ჩადენილი დანაშაული სინამდვილეში საშინელი ტერორისტული აქტია კაცობრიობის, ჰუმანიზმის და ადამიანობის წინააღმდეგ. 131 ადამიანი დაიღუპა, 744 დაიჭრა და დაშავდა, 4 უგზო-უკვლოდ დაიკარგა და 400-ზე მეტი დააპატიმრეს უკანონოდ, რის შედეგადაც მრავალი ადამიანის უფლებათა საერთაშორისო ინსტრუმენტები, მათ შორის ადამიანის უფლებათა საყოველთაო დეკლარაცია, უხეშად იქნა დარღვეული.

ეროვნული ლიდერის ჰეიდარ ალიევის მიერ გამართულ პრესკონფერენციაზე, რომელიც მოვლენის დილით მოსკოვში აზერბაიჯანის მუდმივ წარმომადგენლობაში ჩავიდა, მან მკვეთრად დაგმო ეს სისასტიკე და ხალხის წინააღმდეგ განხორციელებული ტერორისტული აქტი კანონის, დემოკრატიის, ადამიანობის წინააღმდეგ განხორციელებულ აქციად უწოდა.

სამშობლოსთვის დაღუპვა არის ნამდვილი გულმოდგინების, ვაჟკაცობის, პატივისა და ღირსების მწვერვალი. 20 იანვრის მოწამეთა გმირობა მაგალითია აზერბაიჯანული ხალხისთვის და აზერბაიჯანული ახალგაზრდებისთვის. აზერბაიჯანის ახლანდელი და მომავალი თაობები ამ მოწამეთა გმირობისგან მიიღებენ მაგალითს. აზერბაიჯანელი ხალხი ყოველთვის იბრძოლებს ეროვნული თავისუფლებისა და დამოუკიდებლობის დასაცავად. ისინი ყოველთვის აჩვენებენ გმირულ მაგალითებს, პატრიოტიზმის მაგალითებს. აქედან გამომდინარე, ამ მოწამეების დაკარგვა ჩვენთვის უდიდესი დანაკლისია, ასევე ჩვენი ხალხისთვის გმირობის მაგალითია, როგორც ჩვენი მაგალითი, ჩვენი ეროვნული სიმდიდრე, ჩვენი ეროვნული სიამაყე. „მოწამეები უკვდავია, დაღუპულებს არ გლოვობენ“ ჩვენი სამოქალაქო მოვალეობაა ისინი გულებში ვაცხოვროთ და მათ შესახებ მომავალ თაობებს მოვუყვეთ.

1994 წლის თებერვლის თვეში მილი მეჯლისის სპეციალურ სხდომაზე, 1990 წლის 20 იანვარს უდანაშაულო ადამიანების სასტიკი მკვლელობა განიხილებოდა, განხილვის შედეგად იმავე წლის მარტის თვეში „1990 წლის 20 იანვარს ბაქოში მომხდარი ტრაგიკული მოვლენების შესახებ“ გადაწყვეტილება მიღებულ იქნა.

აზერბაიჯანის რესპუბლიკის პრეზიდენტმა ილხამ ალიევმა თქვა - "მოწამეები უკვდავები არიან, ისინი ჩვენს გულში მუდმივად ცხოვრობენ" და 20 იანვრის მოწამეთა ხსოვნის მარადიულობას, მათი სახელების განდიდებას, ასევე მათი ოჯახების სოციალური დაცვის გაძლიერებას ყოველთვის ყურადღების ცენტრში აქცევს, ამ მიმართულებით მნიშვნელოვანი ღონისძიებები ხორციელდება. 2006 წლის 19 იანვარს, აზერბაიჯანის რესპუბლიკის პრეზიდენტმა დააწესა საპრეზიდენტო დახმარება 20 იანვრის წამებულთა ოჯახებისთვის. სახელმწიფოს მეთაურის მოწამეთა ხეივნის კომპლექსის რეკონსტრუქციასთან დაკავშირებით განკარგულება სამშობლოს მოწამეების ხსოვნის პატივისცემის კიდევ ერთი მაგალითი გახდა. 20 იანვრის მოწამეთა ხსოვნის მარადიულობის კიდევ ერთი ნაბიჯი იყო 20 იანვრის მეტროსადგურის ზედ წრესთან მემორიალური კომპლექსის შექმნა. 2010 წლის 20 იანვარს, ბაქოს იასამალის რაიონში „20 იანვრის“ წრეში მემორიალური კომპლექსის გახსნა ჩვენი მოწამეების ღირსების ღია მაგალითია.

20 იანვრის ტრაგედია, რომელიც ეროვნული ერთიანობისა და პატრიოტიზმის სიმბოლოდ იქცა, ჩვენი ერის სუვერენიტეტისთვის ბრძოლის დიდებული ისტორიაა. ყოველწლიურად, ტრაგედიის წლისთავზე, მილიონობით ადამიანი დადის დედაქალაქის ყველაზე მაღალ წერტილში მდებარე მოწამეთა ხეივანში გმირების ხსენებისთვის.

ფრანგი ფილოსოფოსისა და „ეგზისტენციალიზმის“ დამფუძნებლის, ჟან-პოლ სარტრის ციტატა „თავისუფლება თავისთავად ყოფნაა“ გვახსენდება. 20 იანვრის თავისუფლების ყველაზე დიდი გაკვეთილი მდგომარეობს იმაში, რომ ნებისმიერი საფრთხის მიუხედავად, ხალხი მზად იყო შეეწირა თავისი სიცოცხლე, ერთიანობისა და თავისუფლების სიყვარულისთვის, ხოლო სამშობლო ვაჟკაცმა შვილებმა დამოუკიდებლობის საფუძველი ჩაუყარეს.

უმთავრესი პასუხისმგებლობა, რომელიც ახალგაზრდების წინაშე გვაქვს, არის ყოველთვის პატივი ვცეთ ჩვენს მოწამეებს და გმირებს, არ დავივიწყოთ ჩვენი ხალხის მიმართ ჩადენილი ტრაგედიები და გენოციდი, და გავაცნობიეროთ, რომ ჩვენ ვართ ერის შვილები, რომლებიც ყოველთვის მზად ვართ დავიღუპოთ სამშობლოსთვის.

ცნობილი აზერბაიჯანული პოეტი აბას საჰჰატი თავის "სამშობლო"-ს ლექსში ხაზს უსვამს: არ არსებობს ისეთი ადამიანი, რომელსაც სამშობლო არ უყვარს, თუ არსებობს ასეთი ადამიანი, სინდისი არ აქვს!

20 იანვრის მოწამენი, როგორც აღნიშნული იყო ლექსში, ჭეშმარიტი კაცები არიან, რომლებსაც ღრმად უყვართ სამშობლო. სწორედ ამიტომ მათ გაწირეს თავიანთი სიცოცხლე სამშობლოსათვის, ჩვენი ხალხის ნათელი მომავლისთვის.

ამ თვალსაზრისით, ჩვენ უნდა დავბრუნდეთ 20 იანვარს, რომელიც ასევე არის სიმამაცის, ვაჟკაცობის, გმირობის და ეროვნული ერთიანობის სიმბოლო და ჩვენი ვალია ეს წარვუდგინოთ მომავალ თაობას.

დამოუკიდებლობის პოეტი, ხალილ რზა ულუტურკი, დიდი უნარ-ჩვევით „თავისუფლება“-ს ლექსში "იხსენიებს 20 იანვრის წამებულთა მსხვერპლშეწირვას.

*აიდინ თაგიევ*

*ბაქო, აზერბაიჯანი*

## SORĞUDA İŞTİRAK EDƏNLƏRİN 30%-İ TƏHSİL NAZİRLİYİNİN FƏALİYYƏTİNİ PİS QİYMƏTLƏNDİRİB

NDI
NATIONAL DEMOCRATIC INSTITUTE

Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin fəaliyyətini rəyi soruşulanların 23%-i yaxşı, 30%-i isə pis qiymətləndirib. Bu, ABŞ-ın Milli Demokratiya İnstitutunun (NDI) Gürcüstanda keçirdiyi ictimai rəy sorğusu nəticəsində məlum olub.

Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin fəaliyyətini respondentlərin 32%-i orta qiymətləndirib, 15%-i isə qeyd olunan suala cavabı olmadığını bildirib.

Qeyd edək ki, ötən illərlə müqayisədə Təhsil Nazirliyinə qarşı mənfi qiymətləndirmə artır, orta qiymətləndirmə azalır, müsbət qiymətləndirmə isə olduğu kimi qalır.

NDI sorğunu işğal altında olan ərazilər istisna olmaqla bütün Gürcüstan üzrə 2019-cu il noyabrın 19-dan dekabrın 13-dək 2 180 respondent arasında keçirib. Sorğunun orta səhv olma həddi +/- 1,9 faizdir.

## MÜƏLLİMLƏR ARAŞDIRMALARINDAKI ÇATIŞMAZLIQLARI APRELDƏ DÜZƏLDƏ, KƏNAR MÜŞAHİDƏYƏ İSƏ SENTYABRDA QEYDİYYAT OLA BİLƏCƏKLƏR

Çatışmazlıqları olan araşdırmalara görə kənar müşahidələr üçün qeydiyyat ola bilməyən baş müəllimlərə düzəliş etmək üçün vaxt veriləcək və sentyabrda kənar müşahidə üçün yenidən qeydiyyat ola biləcəklər. Bu haqda "etaloni.ge"yə Müəllimlərin Milli Peşəkar İnkişafı Mərkəzindən bildiriblər.

"Bu semestr ərzində kimin araşdırmasında çatışmazlıq var idisə ona düzəlişlər etmək üçün imkan veriləcək. Təxminən aprel ayında səhv edilmiş tədqiqatları yenidən yükləmək üçün onlara şans verəcəyik və baxaq, bu səhvlər nə dərəcədə düzələcək. Kimin araşdırması tələblərə uyğun olarsa sentyabrdan ona kənar müşahidə üçün qeydiyyatdan keçmək imkanı veriləcək", - deyə Müəllimlər Evindən bildiriblər.

Məlumata görə, kənar müşahidədən 400-ə yaxın baş müəllim statusu olan pedaqoq uğurla keçib.

"Ötən semestrdə 450 müəllim kənar müşahidə üçün qeydiyyatdan keçmişdir və onlardan təxminən 400-ü müsbət, 50-si isə mənfi qiymətləndirildi. Ancaq bu müəllimlər sentyabrda yenidən kənar müşahidədən keçə biləcəklər.

31 yanvar tarixinə olan vəziyyətə görə, 15 kreditə malik və vacib fəallıqlarını həyata keçirmiş baş müəllim statusu olan pedaqoqlara sentyabrdan kənar müşahidə keçmək imkanı veriləcək. Biz tədqiqatları yoxlayacağıq, qanunda yazılıb ki, bu tədqiqatları yoxlamaq məcburiyyətindəyik, buna uyğun olaraq onlara həmin tədqiqatı düzəltmək imkanı veriləcək və sentyabrdan kənar müşahidə üçün tam paketi olanlar müşahidəyə qoşulacaq", - Müəllimlər Evindən bildirilib.

## BERİKA ŞUKAKİDZE: DİREKTORLAR İSTİLİK SİSTEMİNİN VƏZİYYƏTİNƏ DEYİL, TƏDRİS PROSESİNƏ İSTİQAMƏTLƏNMİŞ OLACAQLAR

***İctimai məktəb direktorlarının sertifikatlaşdırılması və imtahan verməsi yeni standartlara əsasən olacaq. Qeyd olunan standartların hazırlanmasında direktorlar özləri iştirak ediblər. Bu haqda Müəllimlərin Milli Peşəkar İnkişafı Mərkəzinin direktoru Berika Şukakidze "etaloni.ge"yə bildirib.***

***Onun izahatına görə, "Milli Direktorlar Məktəbi" layihəsinin başlama vaxtının qərarını o vermir və bunu Təhsil Nazirliyi müəyyən edəcək.***



""Milli Direktorlar Məktəbi" layihəsini hazırlayırıq. Standart artıq hazırdır, diqqətinizə çatdırmaq istəyirəm ki, bu standartı direktorların özləri yazıb, eləcə də təhsil üzrə ekspertlər və bir neçə resurs mərkəz rəhbəri bu prosesə qoşulub. Yəni bu, hardansa tərcümə edilmiş yenilik deyil. Biz məktəb direktorlarından xahiş etdik ki, özləri hansı standartları istədiklərini desinlər. Sonra sertifikatlaşdırma məhz bu standartlarla olacaq və müsahibələri də bu standartlar müəyyən edəcək. Vaxtlarla bağlı nazirlik çalışır və məhz onlar layihənin nə zaman başlayacağına qərar verirlər. Biz sənədləri hazırlayırıq".

**- Cənab Berika, direktorların sertifikatlaşdırılması məsələsini də uzun müddətdir gözləyirik...**

- Biz düşünürük, bir halda ki, yeni standart hazırlanır, onların sertifikatlaşdırılması və imtahan da bundan irəli gələrək olmalıdır. Sertifikatlaşdırma imtahanı olacaq və əgər şəxs kvalifikasiyasını təsdiq edərsə vakansia elan olunan müsabiqələrdə iştirak edə bilər. Bir daha qeyd edirəm ki, vaxtla bağlı heç nə deyə bilmərəm, çünki buna mən qərar vermirəm.

**- Məktəb direktorlarını kim hazırlayacaq?**

- Direktorları bizim mərkəzin əməkdaşları, eləcə də nazirlik nümayəndələri hazırlayacaq və universitetdən də qoşulacaqlar. Bu maaşlı iş olacaq və müsabiqədə qalib gələn şəxs trener olacaq, ancaq bizdə bu şəxslərin kimlər ola biləcəyini göstərən meyarlar olacaq.

**- Hazırlıq nədən ibarətdir və daha konkret direktorlar hansı istiqamətdə hazırlanacaqlar?**

- Hazırlıq birmənalı şəkildə direktorun təhsil üzrə liderə çevrilməsi istiqamətində aparılacaq. Yəni məktəb direktoru məktəbin tədris planı və fasilitasiya üzərində çalışmağı, dərs prosesini müşahidə etməyi, bu yolla müəllim fəaliyyətinin qiymətləndirilməsini və ona peşəsində yardım göstərməyi, yaxud ehtiyacından dolayı ona peşə treninqləri təklif etməyi bacarmalıdır.

Bizim üçün tədris prosesi təhsil-təlim prosesidir. Məktəb diektorunun yaxşı menecer olması çox yaxşıdır, amma məktəb direktoru tədris prosesini idarə etməlidir. Yəni direktorlar məktəbin istilik sisteminin vəziyyətinə deyil, təhsil-tədris prosesinə istiqamətlənəcəklər. İstilik sistemi də vacib məsələdir, ancaq bunun üçün nəzarətçi var.

## YENİ QRİFLƏNMİŞ DƏRSLİKLƏRİN AZƏRBAYCAN, RUS VƏ ERMƏNİ DİLLƏRİNƏ TƏRCÜMƏSİ ÜÇÜN BİR MİLYON LARİDƏN ÇOX MƏBLƏĞ XƏRCLƏNƏCƏK

Təhsil və Elmi İnfrastrukturun İnkişafı Agentliyi VII sinfin qriflənmiş dərsliklərinin (Fizika, Vətəndaşlıq, Tarix, Biologiya, Coğrafiya, Tətbiqi və təsviri incəsənət, Riyaziyyat, Musiqi) və Levan Kikalişvilinin müəllifliyi ilə tərtib olunmuş V-VI siniflər üçün qriflənmiş Bədən tərbiyəsi dərsliyinin tərcüməsi üçün bir milyon laridən çox məbləğ sərf edəcək.

Dərsliklər Azərbaycan, rus, erməni dillərinə tərcümə olunmalıdır və həmin dərsliklər qeyri-gürcüdilli məktəblər üçün nəzərdə tutulub. Qanunvericiliyə əsasən, dərsliklərin tərcüməsini qrifləmə müsabiqəsində qalib gələn nəşriyyatlar (müəllif hüququ olan şəxslər) həyata keçirir. Əgər onlardan hansısa imtina edərsə, bu halda başqa təşkilata xidmət sifariş edirlər. Təhsil və Elmi İnfrastrukturun İnkişafı Agentliyi qeyd olunan xidməti sadələşdirilmiş satınalmayla həyata keçirəcək və ümumilikdə 1 023 431.37 lari ödəyəcək. Müqavilənin müddəti 2020-ci il yanvarın 20-dən iyunun 1-nə kimidir.

"Dərsliklərin Azərbaycan, rus və erməni dillərinə tərcüməsindən əlavə onların korrektə edilməsi, stilistik düzəlişi və elmi redaktəsi (fənn mütəxəssisi tərəfindən) təmin olunmalıdır. Agentliyə təqdim olunan nəşr üçün hazırlanmış çap olunacaq faylın (dərsliyin elektron versiyası PDF formatda, DPI - ən azı 3600) hazırlanması xüsusi bilik və məktəb dərsliklərinin tərcüməsi ilə bağlı təcrübə tələb edəcək. Dərsliklər müvafiq fənn və dilə uyğun terminologiyalar və qrammatik uyğunluqlarla tərcümə olunmalıdır, orijinal dərsliyə müvafiq olmalıdır. Tərcüməçi müvafiq fənni yaxşı bilməli və dillərarası ekvivalentlərin sürətli axtarış bacarığına malik olmalıdır" – bu, Agentliyin tərcümə olunacaq dərsliklərə qoyduğu tələblərdir.

Təhsil və Elmi İnfrastrukturun İnkişafı Agentliyinin məlumatından aydın olur ki, dərsliklərin tərcüməsinə bütün müəllif hüququ olan şəxslər razılıq verib və müəssisəyə öz hesabatlarını təqdim ediblər. Tərcümə xidmətindən Avtandil Saqinaşvili imtina edib. O, VII sinif riyaziyyat fənninin/seriyasının müəllifidir. Agentlik qeyd olunan xidməti başqa şirkətə sifariş verməlidir. Qeyd olunan dərsliyin rus, Azərbaycan və erməni dillərinə tərcüməsini Agentliyə şirkətlərdən biri təklif edir. Şirkətin hesabatına əsasən, dərsliyin bir səhifəsinin tərcüməsi 27 laridir. Kitab cəmi 374 səhifədir. Ümumilikdə, hər bir dilə, bir kitabın çap və tərcümə qiyməti 16,328.84 lari təşkil edir.

*Səhifəni hazırladı: Aynurə ƏLİYEVA*

# AMERİKALI KONQRESMENLƏR GÜRCÜSTANIN BAŞ NAZİRİNƏ MƏKTUB YAZIBLAR: GÜRCÜSTANIN ƏSAS SƏKKİZ PROBLEMİ

***Məktubu imzalayan konqresmenlər kimdir və niyə onların fikri önəmlidir?***

Gürcüstanın baş naziri Giorgi Qaxaria amerikalı konqresmenlərdən məktub alıb, məktubda deyilir ki, **Gürcüstan hökuməti vəd etdiyi demokratik islahatlardan imtina edib, siyasi opponentlərini təqib edir, ölkədəki investisiya mühiti isə pisləşir.**

Məktub dörd konqresmen: "Gürcüstanın Dostları Qrupu"nun həmsədrləri Adam Kinsinger və Cerald Konnoli; Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinin sədri Eliot Engel və Nümayəndələr Palatasının Xarici İşlər Komitəsində respublikaçı azlığın lideri Maykl Makkoll tərəfindən imzalanıb.

Məktub yanvarın 21-nə aiddir, amma baş nazir administrasiyası onu yanvarın 22-si axşam saatlarında dərc edib.

Müxalifət və ekspertlər deyirlər ki, bu, "Gürcü arzusu" iqtidar partiyasının aldığı ən tənqidi məktublardan biridir və bu məktubun real ünvanı baş nazir yox, ölkənin qeyri-rəsmi lideri Bidzina İvanişvilidir.

Gürcüstan hakimiyyətinin reaksiyası: **məktubda ifadə olunan fikir yalnız dörd konqresmenə aiddir və ciddi müzakirəyə layiq deyil.**

### MƏKTUBDA SADALANAN KONKRET FAKTLAR:

**1) Konqresmenlər bildirirlər ki, Gürcüstan hökuməti vəd etdiyi demokratik islahatlardan imtina edib.**

Burada proporsional seçki sisteminə keçidlə bağlı B.İvanişvilinin 2019-cu ilin yayında Tbilisidə keçirilən kütləvi etirazlar fonunda verdiyi vəd nəzərdə tutulur. Amma noyabrda parlamentdə səsvermə zamanı "Gürcü arzusu" iqtidar partiyasının (partiya lideri Bidzina İvanişvilidir) nümayəndələri müvafiq dəyişiklikləri dəstəkləməyib.

**2) Gürcüstan hakimiyyəti dinc nümayişçilərə qarşı güc tətbiq edib.**

Məktubdan sitat:

*"Biz demokratik islahatlardan imtina və dinc nümayişçilərə qarşı zorakılıq tətbiqi ilə bağlı qərarlardan narahat olmuşuq".*

**3) Gürcüstan hakimiyyəti siyasi təqib məqsədilə ölkə üçün strateji əhəmiyyət kəsb edən layihədən – dərinsulu Anakliya limanından istifadə edib.**

Məktubdan sitat:

*"ABŞ-ın dəstəklədiyi Anakliyanın inkişafı üzrə Konsorsiumu "Gürcü arzusu" siyasi təqib hədəfinə çevirib. Amerika şirkətləri artıq bu mühüm layihədə öz cari və gələcək sərmayələrini dayandırıblar.*

*Bu tendensiyalar, deyəsən, getdikcə daha da pisləşən işgüzar mühiti əks etdirir, bu səbəblə Gürcüstana Birləşmiş Ştatlardan gələcək investisiyalar dayandırıla bilər".*

**4) Gürcüstan hakimiyyətinin əməlləri Rusiya və prezidenti Vladimir Putinin regionda təsirini gücləndirir.**

Məktubdan sitat:

*"Xarici investisiyaların azalması nəinki gürcü xalqına və onun Qərb institutlarına daha dərin inteqrasiyaya bəslədiyi ümidlərə zərbə vurur, həm də Vladimir Putinin regionda təsirini gücləndirir".*

**5) 2020-ci il parlament seçkiləri öncəsi "Gürcü arzusu" Facebook-da demokratiyaya, Qərb dəyərlərinə qarşı paylaşımlar yayan və seçkilərin yüksək səviyyədə keçirilməsini şübhə altına qoyan geniş akkauntlar şəbəkəsini maliyyələşdirir.**

Məktubdan sitat:

*""Gürcü arzusu" partiyasının rəhbərlik etdiyi Gürcüstanın 2020-ci il parlament seçkilərinə necə yaxınlaşmasını nəzərə alaraq, biz yenidən sizləri bu seçkilərin legitimliyini qorumağa və seçkini daxili və xarici müdaxilələrdən mühafizə etməyə səsləyirik.*

*2019-cu il 17 dekabr tarixli cavab məktubunuzda siz 2020-ci il parlament seçkilərinin ən yüksək standartlarla həyata keçiriləcəyinə söz verdiniz. Amma son məlumatlara əsasən, Facebook "Gürcü arzusu" partiyası tərəfindən maliyyələşdirilən böyük akkauntlar şəbəkəsini bağlamalı olub. Bu akkauntların demokratiyaya, Qərbə qarşı baxışları yayması sadəcə qəbuledilməzdir".*

**6) "Gürcü arzusu" partiyası öz opponentlərini siyasi motivlərlə təqib edir və bunun üçün özünün idarə etdiyi prokurorluqda istifadə edir. Partiya eyni yoldan kütləvi informasiya vasitələri və vətəndaş cəmiyyəti təmsilçilərinin də təqibi üçün yararlanır.**

Məktubdan sitat:

*"Biz "Gürcü arzusu" partiyası tərəfindən təyin olunmuş prokurorların partiya rəqiblərinə qarşı köhnə işləri yenidən başlamasından çox narahatıq. Bu işlərdən bəziləri… müxalifətin qabaqcıl liderlərinə, jurnalistlərə, beynəlxalq korporasiyalara və vətəndaş cəmiyyəti fəallarına qarşı yönəlmiş kimi qəbul edilir".*

**7) Gürcüstanda məhkəmə sistemi qərəzlidir.**

Məktubdan sitat:

*"Qanunun aliliyinin və məhkəmə sisteminin qərəzsizliyinin qorunması sizin partiyanızın zəmanət verdiyi sağlam demokratiya, o cümlədən də azad və ədalətli seçki üçün vacibdir".*

**8) Gürcüstanda işgüzar mühit pisləşir, Amerika və Avropa şirkətləri isə təqiblərə məruz qalır.**

Məktubdan sitat:

*"Gürcüstan 1991-ci ildə müstəqillik əldə edəndən sonra biz gürcü xalqının demokratiyaya və Qərblə tərəfdaşlığın dərinləşdirilməsinə doğru güclü hərəkatını müşahidə edirik. Amma… son zamanların demokratik və iqtisadi tendensiyaları Gürcüstanın Birləşmiş Ştatlarda imicinə mənfi təsir göstərir.*

*Təəssüf ki, iqtisadi indikatorlar Gürcüstana birbaşa xarici investisiyaların kəskin azaldığını göstərir. Amerika və Avropa şirkətlərinin bəziləri təzyiqdən ziyan çəkib. Bu səbəbdən çoxları öz biznes planlarını yenidən nəzərdən keçirməli olub".*

### KONQRESMENLƏR GÜRCÜSTAN HÖKUMƏTİNƏ HANSI TÖVSİYYƏLƏRİ VERİR?

Konqresmenlər gürcüstanlı həmkarlarını Gürcüstanın ABŞ Nümayəndələr Palatasındakı hər iki partiyanın göstərdiyi dəstəyin böyük hissəsini itirməsinə yol verməməyə çağırıb.

Məktubdan sitat:

*"Biz ümid edirik ki, sizin hökumətiniz demokratik institutların möhkəmləndirilməsi və gürcü xalqının iqtisadi rifahının yüksəlişi məqsədilə, Gürcüstanın uzun illər ərzində Amerika Birləşmiş Ştatlarının strateji tərəfdaşı olaraq qalması üçün ABŞ Konqresi, səfir Kelli Deqnan, Avropa İttifaqı və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edəcək".*

### NİYƏ MƏKTUB MÜƏLLİFLƏRİNİN FİKRİ ÖNƏMLİDİR?

İlk növbədə vacib olan odur ki, **məktubu imzalayanlar arasında Amerikanın hər iki aparıcı partiyasının nümayəndələri var,** həm respublikaçıların, həm də demokratların. Bu isə o deməkdir ki, Gürcüstan məsələsi ilə bağlı Konqresdə tam konsensus mövcuddur.

*"Gürcüstan hökumətinin bu məktuba ciddi yanaşması lazımdır. Bu, mənfi tendensiyalar haqda ikipartiyalı xəbərdarlıqdır… və bu, Gürcüstanın dostlarından gəlir",* – Co Bayden mərkəzinin idarəedici direktoru, amerikalı ekspert Maykl Karpenter konqresmenlərin məktubunu "Twitter"də şərh edib.

İkinci vacib məqam **məktubun ABŞ Konqresinin "Gürcüstanın Dostları Qrupu" həmsədrləri tərəfindən imzalaması** ilə bağlıdır, onların Gürcüstana baxışı xüsusilə mühümdür. Üçüncü vacib məqam ondan ibarətdir ki, **məktubu imzalayanların Konqresdəki siyasi çəkiləri kifayət qədər yüksəkdir.** Məkubu imzalayanlar arasında Nümayəndələr Palatasının Xarici Siyasət Komitəsinin rəhbəri Eliot Engel də var. Məktubu imzalayanlar arasında olan digər konqresmen Cerald Konnoli isə ABŞ-ın NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin prezidentidir.

Bu konqresmenlər çox vaxt Gürcüstanı dəstəkləyən məzmunda bəyanatlar səsləndirib. Məsələn, məhz bu konqresmenlərin fəaliyyəti nəticəsində 2019-cu ilin oktyabrında ABŞ-ın Nümayəndələr Palatası Gürcüstanı dəstəkləyən ikipartiyalı aktı yekdilliklə dəstəkləyib.

Gürcüstan hakimiyyəti o zaman bu konqresmenləri "Gürcüstanın dostları" adlandırırdı və opponentləri ilə debatlar zamanı çox vaxt bu aktı Amerikanın göstərdiyi dəstəyin nümunəsi adlandırırdılar.

### HAKİMİYYƏTİN VƏ MÜXALİFƏTİN REAKSİYASI

Hakimiyyət nümayəndələri bildirirlər ki, konqresmenlər Gürcüstandakı hazırkı vəziyyət haqda real informasiyaya sahib deyillər, **çünki müxalifət konqresmenlərə "yalan informasiya" ötürür.**

Hakimiyyət nümayəndələri öz şərhlərində bu konqresmenlərin siyasi çəkisini və nüfuzunu kiçiltməyə çalışaraq, vurğulayıblar ki, məktubu qanunvericilərin yalnız dördü imzalayıb.

**Müxalifət və ekspertlər məktubu seçkiqabağı dövrdə "Gürcü arzusu"nun ABŞ-dan aldığı ciddi xəbərdarlıq və "qırmızı kart" kimi qəbul ediblər.**

*"Təəssüf ki, Qərbdə Gürcüstanda necə idarəetmə sisteminin qurulduğu haqda təsəvvürlər dəyişir. Faktiki olaraq, əgər biz nəticə çıxarsaq, o zaman görərik ki, Qərb getdikcə Gürcüstanda hansısa kölgə avtoritarizminin formalaşdığına əmin olur…*

*Əslində məktub Bidzina İvanişviliyə ünvanlanıb. (Baş nazir) Qaxaria adi poçtalyondur, məktub ona göndərilib ki, yiyəsinə çatdırsın",* – siyasi şərhçi Qia Xuxaşvili hesab edir.

*Mənbə: jam-news.net*

# "RUHANİLƏR ÜÇÜN DÖVLƏT DİLİ" LAYİHƏSİ DAVAM EDİR



Dini Məsələlər üzrə Dövlət Agentliyi Zurab Jvania adına Dövlət İdarəçilik Məktəbi ilə əməkdaşlıq memorandumu imzalayıb və 2019-cu ilin sentyabrında "Ruhanilər üçün dövlət dili" layihəsinə başlayıb. Layihənin birinci mərhələsində müsəlman icmasının din xadimləri iştirak ediblər. Dərslər Marneuli, Dmanisi və Saqareco rayonlarında həyata keçirilib.

Dini Məsələlər üzrə Dövlət Agentliyinin məlumatına əsasən, müsəlman icmasının din xadimləri layihənin ikinci mərhələsində də tədrisi davam etdirəcəklər.

2019-cu ilin dekabrından Evangelist-Lüteran Kilsəsinin ruhaniləri dövlət dilinin tədrisinə başlayıblar. Növbəti mərhələdə layihəyə Latın Katolik Apostol İdarəsinin və Erməni Apostol Provoslav kilsəsinin Gürcüstan Eparxiyasının din xadimləri də qoşulacaqlar.

Bu il yanvarın 22-si Dini Məsələlər üzrə Dövlət Agentliyində layihənin pedaqoqları ilə görüş keçirilib. Agentliyin rəhbəri Zaza Vaşakmadze və pedaqoqlar layihənin birinci hissəsini qiymətləndirib və növbəti mərhələnin daha da yaxşı olması imkanları və perspektivlərini müzakirə ediblər.

Z.Jvania adına Dövlət İdarəçilik Məktəbinin nümayəndələri Dini Agentliklə əməkdaşlığa görə öz razılıqlarını bildiriblər. Agentlik rəhbəri isə pedaqoqlara göstərdikləri əmək üçün təşəkkür edib və onların hamısına "Əhdi-Cədid və Zəbur", gürcü dilinə tərcümə olunmuş "Qurani-Kərim", Agentlik tərəfindən çap olunmuş 2020-ci ilin dini təqvimini hədiyyə edib.

Görüşdə Agentliyin hüquqi təminat xidmətinin rəhbəri Avtandil Kvernadze və Strateji Araşdırmalar, Analiz və Regionlar Xidmətinin rəhbəri Nino Çavçavadze iştirak edib.

# QARDABANİDƏ YENİ İSTİLİK ELEKTRİK STANSİYASININ AÇILIŞI OLUB



Qardabani rayonunda yeni müasir tipli İstilik Elektrik Stansiyası (İES) istifadəyə verilib. "Qardabani-2" İES-in rəsmi açılış mərasimində Gürcüstanın baş naziri Giorgi Qaxaria, iqtisadiyyat və davamlı inkişaf naziri Natia Turnava, Kvemo Kartli qubernatoru Şota Rexviaşvili, Gürcüstanın Neft və Qaz Korporasiyası, diplomatik korpus və yerli hakimiyyət nümayəndələri iştirak ediblər.

Kombinə edilmiş dövriyyəyə malik stansiyanın gücü 230 meqavat təşkil edir. İES ildə 1,3 milyard kilovat-saat həcmində elektrik enerjisi istehsal edəcək.

Gürcüstanın Neft və Qaz Korporasiyası İES-in tikintisinə 180 milyon ABŞ dollarına yaxın investisiya qoyub.

"Qardabani-2" İES-i müasir funksiya ilə təchiz olunub. Belə ki, Gürcüstanın elektrik enerjisi ilə təchizatında hər hansı bir fövqəladə vəziyyət yaranarsa, stansiya bütün elektrik sistemini bərpa etmək imkanına malik olacaq.

# RUSTAVİDƏ KVEMO KARTLİNİN REGİONAL QAN BANKI AÇILIB

Rustavidə Kvemo Kartlinin Regional Qan Bankının açılışı olub. Açılış mərasimində Kvemo Kartli qubernatoru Şota Rexviaşvili, onun müavini Zviad Cunaşvili, Parlamentdə Rustavinin majoritar deputatı Paata Mxeidze, Rustavi meri İrakli Tabağua və digər yerli hakimiyyət nümayəndələri iştirak ediblər.

Rustavi Tibb Evi – N1 Müalicə-Diaqnostika Mərkəzinin bazasında olan Qan Bankı regionun qan ehtiyatı ilə təmin olunması baxımından yeganə tibbi müəssisə və strateji obyektdir.

Qan Bankı son tibbi aparatura və inventarla təchiz edilib, yerində donorlardan qan almaq, skrininq, laborator və klinik müayinələrdən keçmək, eləcə də qan komponentləri ilə stasionarların təmin edilməsi və təmənnasız donorluq mümkündür.

# SARTİCALADA YENİ TƏCİLİ TİBBİ YARDIM MƏRKƏZİ AÇILIB

Qardabani bələdiyyəsinin Sarticala kəndində yeni təcili tibbi yardım mərkəzinin açılışı olub.

Açılış mərasimində Fövqəladə Halların Koordinasiyası və Təxirəsalınmaz Yardım Mərkəzinin direktoru Avtandil Talakvadze, Qardabani bələdiyyəsinin meri Ramaz Budağaşvili, Parlamentin deputatı Savalan Mirzəyev, Kvemo Kartli qubernatoru Şota Rexviaşvili və digər rəsmi şəxslər iştirak ediblər.

Müasir standartlara uyğun bina lazımı avadanlıqlar və texnika ilə təmin olunub, iş və istirahət üçün bütün şəraitlər yaradılıb.

Layihəni Regional İnkişaf və İnfrastruktur Nazirliyi yerli özünüidarəetmə orqanları ilə birgə həyata keçirir və məqsəd müvafiq xidmətin daha da yaxşılaşdırılmasıdır.

# FEVRALIN 1-DƏN İÇMƏLİ SU ŞƏBƏKƏSİNƏ YENİ QOŞULANLAR 500 LARİ ƏVƏZİNƏ 400 LARİ ÖDƏMƏLİ OLACAQLAR

Gürcüstanın Energetika və Su Təchizatı Tənzimləməsi üzrə Milli Komissiyasının qərarı ilə içməli su təchizatı sisteminə yeni istifadəçinin qoşulma müddəti və prosedurları yenilənib.

Fevralın 1-dən bələdiyyələrdə şəbəkəyə qoşulmanın (20 mm) qiyməti 500 laridən 400 lariyə, kanalizasiya sisteminə qoşulmanın (0-100 mm) qiyməti isə 1000 laridən 800 lariyə qədər azalacaq. Tbilisi, Kutaisi, Rustavi, Poti, Batumi kimi böyük şəhərlərdə isə qiymətlər olduğu kimi qalacaq.

Xatırladaq ki, bir neçə həftə əvvəl Komissiya Tbilisi, Kutaisi, Rustavi, Poti və Batumidə təbii qaz şəbəkəsinə yeni abonentin qoşulmasının dəyərini ikiqat artırıb və 400 lari əvəzinə 800 lari edib.

# MARNEULİDƏ QAÇQINLAR ÜÇÜN 31 YENİ EV TİKİLİR



Marneulidə məcburi köçkün ailələr üçün kənd tipli yaşayış məntəqəsi salınır. Yeni inşa ediləcək 31 ev uzun illərdir Marneuli bələdiyyəsində şəraitsiz tikilidə yaşayan qaçqın ailələrinə veriləcək.

Tikinti işləri Almaniya hökuməti tərəfindən maliyyələşdirilmiş layihə çərçivəsində aparılır.

Qrant proqramı qaçqınların evlə təmin olunması ilə yanaşı onların iqtisadi, sosial və təhsilə inteqrasiyasını, eləcə də gəlir mənbəyinin yaradılması məqsədi ilə qrantların verilməsini nəzərdə tutur.

Məcburi köçkünlərin işləri, əmək, səhiyyə və sosial müdafiə nazirinin müavini Giorgi Dzodzkolauri, Kvemo Kartli qubernatoru Şota Rexviaşvili, Qaçqınların, Ekomiqrantların və Mövcud Mənbələrlə Təminat Agentliyinin direktoru Besarion Simonişvili, Almaniyanın Yenidənqurma və İnkişaf Bankının (KFW) Cənubi Qafqaz üzrə regional ofisinin direktoru Klaus Faiqel, Danimarka Qaçqınlar Şurasının (DRC) Cənubi Qafqaz nümayəndəliyinin direktoru Vinsent Donto və yerli hakimiyyət nümayəndələri həyata keçirilən tikinti işləri ilə yaxından tanış olublar.

Almaniyanın KFW bankının "Məcburi köçkünlərin və ev sahibi olan icmaların iqtisadi iştirakı, yaşayış yeri ilə təminatı və sosial infrastrukturu" layihəsini Danimarka Qaçqınlar Şurası həyata keçirir. Qrant proqramı 2019-cu ilin fevralında başlayıb və 30 ay davam edəcək.

İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 YANVAR
2020-Cİ İL
№002 (106)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## QRİP VƏ SOYUQDƏYMƏ ZAMANI YOLVERİLMƏZ 5 SƏHV

*Qrip və soyuqdəymə payız və yaz fəsillərində ən çox rast gəlinən xəstəliklərdir. Əksəriyyət virus xəstəliklərini ciddi qəbul etmir və qorunmaq üçün bəzən səhv metodlardan istifadə edir, bu da çox vaxt əks nəticə verir. Bəs qrip və soyuqdəymə zamanı nə etmək olmaz? Bu xəstəliklər zamanı etdiyimiz 5 səhvi təqdim edirik:*



**1-ci səhv**

İlk ən çox yayılan səhv qrip və soyuqdəyməni ayaqda keçirməyə üstünlük verməyimizdir. Əgər görsəniz ki, soyuqlamısınız, yaxud qrip virusuna yoluxmusunuz yataq rejiminə riayət edin. Qripi ayaqüstə keçirmək təhlükəli deyil, amma bu pnevmoniya, bronxit, yaxud başqa çətinliklər yarada bilər. Bundan əlavə, küçəyə çıxmaqla virusun yayılmasına və epidemiyanın daha da genişlənməsinə səbəb olursunuz.

**2-ci səhv**

Qrip, yaxud soyuqdəymə xəstəlikləri zamanı çoxumuz dərhal “sehrli həbləri” – antibiotikləri qəbul etməyə başlayırıq ki, bu da çox böyük səhvdir. Bilməliyik ki, antibiotiklərdən yalnız bakteriya infeksiyası zamanı istifadə olunur. Onlar qrip virusunu müalicə etmir, əksinə antibiotiklərin nəzarətsiz qəbul edilməsi immuniteti zəiflədir və orqanizmimizin virusla mübarizə aparmasına mane olur. Belə ki, həmin “sehrli həblər” bağırsaq mikroflorasına dağıdıcı təsir göstərir ki, bu da disbakteriozun yaranmasına səbəb olur və insan sağlamlığına əlavə problemlər yaradır.



**3-cü səhv**

Hərarətimiz bir qədər yüksələn kimi başlayırıq hərarət endirən dərmanlar qəbul etməyə, çalışırıq hərarətimizi bədənin normal temperaturuna – 36,6-ya qədər endirək. Həqiqətdə isə xəstəlik zamanı bədən temperaturunun artması tam normal hadisədir. Bu, infeksiya və viruslara qarşı temperaturun mübarizə silahıdır. Ona görə də, bədən temperaturu 38 dərəcəyə qalxmayana qədər hərarət endirən dərmanların qəbulu lazım deyil. Bu dərmanlar bədənin virusa qalib gəlməsinə mane olur.

**4-cü səhv**

Niyəsə belə fikir yayılıb ki, soyuq dəymiş, yaxud qripə yoluxmuş adam isti yerdə olmalıdır, qalın yorğana bürünməlidir. Bu, böyük səhvdir. Çünki çox isti mühitdə viruslar özlərini daha yaxşı hiss edirlər. Xəstənin olduğu otaq mütləq davamlı şəkildə havalandırılmalıdır, otağa təmiz və nəmli hava daxil olmalıdır. Bu, qrip profilaktikasının ən vacib metodlarından biridir.




**5-ci səhv**

Qripin simptomlarından biri öskürəkdir. Öskürəkdən qurtarmaq üçün bir qayda olaraq dərman almağa qaçırıq və qeyd olunan medikamentlərin təsir mexanizminə diqqət yetirmirik. Öskürəyin müxtəlif növlərini bir-birindən ayırmaq vacibdir və müvafiq medikamentlər qəbul olunmalıdır. Ona görə də hansı dərmanı qəbul edəcəyimizə həkim qərar verməlidir. Özbaşına aparılan müalicə təhlükəlidir.

*Mənbə: intermedia.ge*

*Gürcü dilindən tərcümə: A.Əliyeva*

## ÖTƏN İL GÜRCÜSTAN ÇİNDƏN 859 MİLYON DOLLARLIQ MAL ALIB



2019-cu ildə Gürcüstanın xarici ticarət dövriyyəsi 2,7% artıb və 12 834.7 milyon ABŞ dolları təşkil edib. Buradan ixrac payı 3 771.5 milyon ABŞ dolları (12,4% çox), ixdal payı isə 9 063.2 milyon ABŞ dolları (0,8% az) təşkil edib.

Statistika Xidmətinin məlumatına əsasən, 2019-cu ildə Çindən Gürcüstana 858.6 milyon dollarlıq məhsul daxil olub və bu göstərici ilə Çin Türkiyə və Rusiyadan sonra idxal bazarının üçlüyünə düşüb. 2017-ci ildə Çindən idxal 732.6 milyon dollar, 2018-ci ildə isə 833.9 milyon dollar təşkil edib.

**2019-cu ildə Gürcüstan Çindən nə alıb?**

1. Düz yayılmış karbon polad - 30 milyon ABŞ dolları.
2. Kondisioner avadanlıqları - 22 milyon ABŞ dolları.
3. Pnevmatik rezin çənbər və şinlər - 21.7 milyon ABŞ dolları.
4. Televiziya bağlantısı üçün aparatura - 21.3 milyon ABŞ dolları.
5. Hesab maşınları və onların blokları - 21.4 milyon ABŞ dolları.
6. Lampalar və işıqlandırma cihazları - 18.7 milyon ABŞ dolları.
7. Poliasetallar, poliesterlər - 18 milyon ABŞ dolları.
8. Elektrik transformatorlar, statik elektrik transformatorlar - 14.8 milyon ABŞ dolları.
9. Buldozerlər, avtoqreyderlər, ekskavatorlar və s. - 13.9 milyon ABŞ dolları.

Yuxarıdakı məhsullar qrupu idxalın 22%-ni təşkil edir. Statistika göstərir ki, bu məhsullardan əlavə Çindən ayaqqabı, soyuducu, ət, işıqlandırma və digər məhsullar da idxal olunur.

İxraca gəldikdə isə, statistikaya əsasən, 2019-cu ildə Gürcüstandan Çinə 227.6 milyon dollarlıq ixrac həyata keçirib. 2018-ci ildə bu göstərici 198 milyon dollar idi. 2017-ci ildə isə Gürcüstan-Çin arasında azad ticarət rejimi qüvvəyə minənə kimi Çinə 201 milyon dollarlıq mal ixrac edilib. Qeyd etmək lazımdır ki, ötən ilin göstəricilərinə əsasən, Çin Gürücstanın əsas ixrac bazarları onluğunda 6-cı yeri tutur.

**2019-cu ildə Gürcüstan Çinə nə satıb?**

1. Mis filizləri və konsentratlar - 172.2 milyon ABŞ dolları.
2. Təbii üzüm şərabları - 18.8 milyon ABŞ dolları.
3. Tibdə və baytarlıqda istifadə olunan qurğular - 12.9 milyon ABŞ dolları.
4. Qiymətli metalların filizləri və konsentratları - 5.7 milyon ABŞ dolları.
5. Zəncəfil, zəfəran, kəklikotu, dəfnə yarpağı və başqa ədviyyatlar - 3.6 milyon ABŞ dolları.
6. Fındıq və qoz - 3.4 milyon ABŞ dolları.
7. Diaqnostik və laboratoriya reagentləri - 2.7 milyon ABŞ dolları.
8. Ortopedik məhsullar, süni bədən hissələri - 2.02 milyon ABŞ dolları.
9. Spirt və spirtli içkilər - 839.7 min dollar.
10. Əridilmiş alüminium - 779,1 min dollar.

*Mənbə: bm.ge*

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım Direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.